ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# AİB-in Şəhərin Su Təchizatı və Sanitariya-Gigiyenik Xidmətlər üzrə Kreditləri İmzalanmışdır

**Bakı, Azərbaycan (29 noyabr 2005-ci il)** – Asiya İnkişaf Bankı (AİB) və Azərbaycan Hökuməti bu gün Ağdaş, Göyçay və Naxçıvanın regional şəhərlərində su təchizatının və sanitar-gigiyenik xidmətlərin yaxşılaşdırılması üzrə ümumi dəyəri 30 milyon ABŞ dolları olan iki kreditə imza atmışlar.

Kreditlər müasir idarəetmə bacarıqları olan, səmərəli və maliyyə cəhətdən gəlirli olan uzun müddətli əməliyyatları həyata keçirən müştərək səhmdar şirkətləri formasında yeni kommunal müəssisələrin yaradılması daxil olmaqla institusional islahat və sosial-iqtisadi potensialları maliyyələşdirəcəklər.

Kreditlərə əlavə olaraq, AİB Yapon Hökuməti tərəfindən maliyyələşdirilən özünün Yaponiya Xüsusi Fondundan sektor-yönümlü islahatlara və hüquqi, normativ-hüquqi və institusional çərçivələrə yardım etmək məqsədilə 500 000 ABŞ dolları məbləğində təmənnasız texniki yardım göstərəcəkdir.

"AİB-in Azərbaycana yardımı sadəcə olaraq təkcə maliyyələşdirmədən ibarət deyildir. O, həmçinin siyasi və struktur islahatlar haqda bilik mənbəyi, strateji yerinə yetirmələr, novator layihələrin layihələşdirilməsi və əsaslı şəkildə həyata keçirilmələrinin mənbəyi kimi xidmət edir" AİB-in Azərbaycandakı Nümayəndəliyinin Ölkə üzrə Direktoru Matthew Westfall deyir.

"Bu əhəmiyyətli layihə su təchizatı və sanitar-gigiyenik xidmətlərin davamiyyətli olmasında, yoxsulluğun azaldılmasında və regionlardakı insanların təmiz su ilə təmin edilməsində və onlara daha yaxşı sağlamlığın bəxş edilməsində köməklik göstərəcəkdir".

Layihə hər bir layihə şəhərində müştərək səhmdar şirkəti yaradacaq və bu şirkətin layihə üzrə yaradılan və bərpa edilən aktivləri olacaq, qərar qəbul edilməsində müvafiq səlahiyyətə (muxtariyyətə) malik olacaq və Ağdaş və Göyçaydakı AzərSu Şirkətinə və Naxçıvan Muxtar Respublikasındakı Tikinti və Memarlıq Dövlət Komitəsinə hesabat verəcəkdir. İstehlakçılara yaxşı xidmət göstərmək məqsədilə layihə özəl sektor operatorları ilə gördükləri işin müqabilində ödənilməsi şərtilə idarəetmə müqavilələrinin tətbiq olunmasına yardım edəcəkdir.

Şəbəkə infrastrukturunun təkmilləşdirilməsi və güclü əməliyyat və idarəetmə qabiliyyətli yeni su şirkətlərinin yaradılmasına nail olmağa əlavə olaraq, kredit layihəsi nasos stansiyalarının bərpasına, boru şəbəkələrinin möhkəmləndirilməsinə sərmayə ilə yardım edəcəkdir. Bu, suyun keyfiyyətinin yaxşılaşdırılmasına, xidmətlərin intensiv şəkildə davamiyyətinə, suyun daha yüksək təzyiqdə olmağına və yeni su şirkətlərinin iqtisadi rentabellik əldə etmələri üçün tələb olunan ilk adım hesab olunan suyun böyük miqdarda verilməyinə aparıb çıxaracaq.

AİB iki kredit vasitəsilə ümumi məbləği 39.9 milyon ABŞ doları olan layihənin 75%-ni əhatə edəcəkdir. 20 milyon ABŞ dolları AİB-nin güzəştli Asiya İnkişaf Fondundan və bu 8

güzəşt ili daxil olmaqla 32 il müddətinə verilir. Faiz ödənişləri güzəşt dövrü ərzində ildə 1.0% və sonra isə ildə 1.5% təşkil edir.

Kreditin 10 milyon ABŞ dolları AİB-in adi əsas resurslarından götürülür. Bu 6 güzəşt ili daxil olmaqla 25 il müddətinə verilir. Faiz AİB LİBOR-una müvafiq olaraq kredit üzrə xidmətlərə əsaslanaraq müəyyən ediləcəkdir.

Hökumət 9.9 milyon ABŞ dolarını layihə xərclərinə çəkəcək. AzərSu, Ağdaş və Göyçay sublayihələri üzrə və Naxçıvan Muxtar Respublikasındakı Tikinti və Memarlıq Dövlət Komitəsi isə Naxçıvan sublayihəsi üzrə icraçı agentdir.

Layihə 2010-cu ilin dekabr ayında tamamlanmalıdır.

Manilada yerləşən AİB özünü yoxsul təbəqələrin vəziyyətini davamiyyətli iqtisadi artım, sosial inkişaf və yaxşı idarəçilik vasitəsilə yaxşılaşdırmaqla Asiya və Sakit Okean regionunda yoxsulluğun azaldılmasına həsr edir. 1966-cı ildə təsis olunaraq, onun 64 üzvü vardır – bunlardan 46-sı regiondandır. 2004-cü ildə o, müvafiq olaraq ümumi məbləği 5.3 milyard və 196.6 milyon ABŞ dolları olan kredit və texniki yardımı təsdiq etmişdir.

*****

**Media Inquiries**

Lala Hajibayova
Tel: +994 12 496 58 00
Mob: +50 225 48 86 Email: lhajibayova@adb.org

**Electronic versions of ADB news releases**

ADB Online Media Center: media.adb.org
ADB web site: www.adb.org
AZRM web site: www.adb.org/azrm